

Orxan ADİLOĞLU

*İyunun 2-də gənc şair Orxan Adiloğlunun dünyasını dəyişdiyi gündən 3 il keçdi. Ədəbiyyata, söz sənətinə bütün varlığı ilə bağlanan, ürəyi yazıb-yaratmaq eşqi ilə döyünən cavan qələm sahibinə amansız ölüm fürsət vermədi...*

*33 yaşında dünyasını dəyişən Orxan Adiloğlu ABU-nun iqtisadiyyatın hüquqi tənzimlənməsi fakültəsini bitirmişdi. Azərbaycan Dəmir Yolları QSC-nin Biləcəri deposunda hüquqşünas vəzifəsində çalışırdı. Bədii yaradıcılığa orta məktəb illərindən başlamışdı. "Azərbaycan", "Ulduz" jurnallarında, müxtəlif qəzetlərdə şeirləri ilə vaxtaşırı çıxış edirdi. Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2010-cu ilin Prezident mükafatçısı, Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış Gənc Ədiblər Məktəbinin (2008-2010) müdavimi idi. 7 kitabı işıq üzü görmüşdü. "Könlümü vermişəm sənət eşqinə" (2006), "Yurd yanğısı" (2008), "Dəlidağdan əsən külək" (2011), "Sevgisiz qəlb viranədir" (2012) və s. şeir kitablarında ənənədən gələn sağlam poetik ruh vardı. Orxan yaşasaydı, bu ruhun diqtə etdiyi yeni poetik imkanları üzə çıxacaqdı... Ancaq, doğru deyirlər ki, sən saydığını say, gör fələk nə sayır...*

*Orxan Adiloğlunun ruhuna ehtiramla kitablarında yer alan bəzi nümunələri oxucularımıza təqdim edirik.*



## Torpağım

Sən mənim qədrimsən, mənim qiymətim,
torpağım,
Mənim sərvətimsən, mənim şöhrətim,
torpağım.
Sənin üçün baş qoymağa gəlmişəm,
torpağım.
Daşın üstə daş qoymağa, gəlmişəm,
torpağım.
Sənsən mənim mənliyimə zəmanət,
torpağım.
Keçmişimdən gələcəyə əmanət,
torpağım.

*2004*

## Sənsiz

Haçandır yoluna dikilib gözüm,
Sevən ürəyimdə dərd düzüm-düzüm.
Səninlə barışa bilmirəm özüm,
Göydə ulduzumuz barışır sənsiz.

Bəlkə də haçansa səhvim də varmış,
Səhvi olmayanlar nə bəxtiyarmış.
Yarımın həsrəti qəlbimi yarmış
Gecə yuxularım qarışır sənsiz.

O mavi gözlərin mənə nə deyir,
Küskün dodaqların bəlkə "hə" deyir.
Anam da bir yandan hey "nəvə" deyir,
Alışır ürəyim, alışır sənsiz.

*1998*

## Hələ də yolunu gözləməkdəyəm

Ay zalım balası, harda qalmısan,
Hələ də yolunu gözləməkdəyəm.
Oturub həsrətin daşının üstə
Hələ də yolunu gözləməkdəyəm.

Od oldun varlığım odunda bişdi,
Hicran bir ox oldu, sinəmi deşdi.
Bir il yox, beş il yox, bir ömür keçdi
Hələ də yolunu gözləməkdəyəm.

Orxan bilər nə ağırmış bu kədər,
Vədə çatar, vaxt yetişər, il ötər.
Dərd üstünə dərd gəlsə də nə qədər,
Hələ də yolunu gözləməkdəyəm.

*2006*

## Getmə

Bu ayrılıq kimə lazım,
Getmə, sevgilim, getmə.
Hələ sənə çox sözüm var,
Getmə, sevgilim, getmə.

Eşit dayan sözlərimi,
Canım qurban, soy dərimi.
Çıxart kor et gözlərimi,
Getmə, sevgilim, getmə.

Qoyma qalım yana-yana,
Mən bir körpə bas bağrına...
And verirəm şirin cana,
Getmə, sevgilim, getmə.

Dön qayıdaq ötən ilə,
Damla-damla gilə-gilə.
Üz döndərmə məndən belə,
Getmə, sevgilim, getmə.

Demə Orxan məndən doyub,
Həsrətin çox sinəm oyub.
Məni yalqız, tənha qoyub
Getmə, sevgilim, getmə.

*2002*

## Gətirmisən

Bu nə xislət, bu nə qayda,
Sən o tayda, mən bu tayda.
Mənim dərdim dünya boyda,
İlimi sərt gətirmisən.

Sevdim - bahar, yazım oldun,
Həm çoxum, həm azım oldun.
Əlçatmayan arzum oldun,
Gör neçə şərt gətirmisən.

Orxan yandı, köz-köz oldu,
Yaraları göz-göz oldu.
Bu məhəbbət bir söz oldu,
Sevginlə dərd gətirmisən.

*2006*

## Ana

Bu adın nə qədər ucalığı var,
Sən mənim varlığım, həyatım ana.
Dönüm bir körpəyə yenə layla de,
Yuxuya gedərək mən yatım, ana.

Yalnız sən duyursan mənim ərkimi,
Sənli ürəyimin sənsən hakimi.
Çıxmaqçün borcundan bir övlad kimi,
Arzumdur arzuna boy atım, ana.

Deyirəm gözlərin dolmasın təki,
Əymısin belini taleyin yükü.
İstərəm mən sənin ürəyindəki
Yatmış arzuları oyadım, ana.

*1997*

## Ata

Məni belə xəstə hallı görəndən
Sinənə dağ çəkilibdir, ay ata.
Ömür adlı bir ağacın görürəm,
Yarpaqları tökülübdür, ay ata!
Elə ürəyinlə danışırsan sən,
Od tutub gizlicə alışırsan sən.
Məni yaşatmağa çalışırsan sən,
Qəddin yaman bükülübdür, ay ata!

Orxanam, bil mənə dardı bu dünya,
Hava doldurulmuş şardı bu dünya.
Qışqırsam eşitməz kardı bu dünya,
Könlüm evi sökülübdür, ay ata!

*2017*

## Haqq vergisi, Tanrı payı

Elimizin ağsaqqalı
Sənsən bizim, Dədə Şəmşir.
Başı qarlı dağlarında
Qaldı izin, Dədə Şəmşir.

Ulu ustad, sən dərs verdin,
Söz qoşana həvəs verdin.
Bu sənətə nəfəs verdin,
Sönməz közün, Dədə Şəmşir.

O dağlarda görünərik,
Dumanına bürünərik,
Yurd qayıtsa sürünərik,
Dizin-dizin, Dədə Şəmşir.

Yaşamadın sən havayı,
Nəzmə çəkdin günü, ayı.
Haqq vergisi, Tanrı payı
Sazı tilsim Dədə Şəmşir.

*2011*

## Yağış

Yağır yağış, nur gəlir,
Yağır yağış, var gəlir.
Qış keçib, bahar gəlir,
Təzə arzular gəlir.

Otlar şehə bələnir,
Çiçəklər cilvələnir.
Ağacların rəngləri
Yenə özünə gəlir.

Hava necə təmizdir,
Sanki keçib ələkdən.
Oyanıb ana torpaq,
Nəfəs alır ürəkdən.

*2006*

## Üşüyürəm

Üşüyürəm birdən-birə,
Soyuqdan, ya küləkdən.
Üşüyürəm ürəkdən,
Soyuq çöküb iliyimə,
Soyuq çöküb ürəyimə.
Üşüyürəm beləcə,
Səs-səmirsiz gizlicə.
Beləcə üşüməkdən
Nələr çəkib başımız,
Ötüb keçir yaşımız.
Sənin soyuqluğundan,
Var ikən yoxluğundan
Bir qəribə üşütmə
Ruhuma salır lərzə,
Mənə elə gəlir ki,
Soyuqluq çöküb ərzə.

*2003*

## Açıl, sabahım

Çəkil, qaranlıq, çəkil,
Açıl, sabahım, açıl.
Vahimədir qaranlıq
Saçıl, günəşim, saçıl.

Gündüzlər xoş müjdəli,
Qaranlıqlar bəd xəbər.
Keçir gecə-gündüzlər,
Ömrümüzsə bixəbər.

Ötüb-keçən günlərin,
Acısı, şirini var.
İnsan yaşamaq üçün
Payı günəşdən umar.

*2006*

## İsitməz bu ocaq məni

Bir ocaq qaladım istisi qalxdı,
Ərşə bülənd oldu, tüstüsü qalxdı,
İsitməz bu ocaq məni yad yerdə.

Süfrə açıb, yedik-içdik, əyləndik,
Razı qaldıq özümüzdən, bəyləndik,
Kədərləndik, qüssələndik şad yerdə.

Gəl düşməni sırasınnan saldıraq,
Bu vətəni çiynimizdə qaldıraq,
Qoy qalmasın saf, müqəddəs ad yerdə.

*2006*

## Yurd yanğısı

*Xalq artisti Arif Babayevə*

Oxuyanda Cabbar kimi
Oxu, ustad, oyat məni.
Gör nə qədər dara çəkib
Bu təzadlı həyat məni.

Loğman gərək sinəm yarsın,
Dərdlərimdən soraq alsın.
Avazınla qoy aparsın
Doğma yurda göy at məni.

Yollarımda dərd bitəcək,
Bu dərd ilə gün ötəcək.
Görən nə vaxt tərk edəcək
Qərib kimi bu ad məni?

*2002*